

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 222 (23.133)

*21 noyabr 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğulayaraq ölkələrimizin dövlət başçıları arasında müntəzəm görüşlərin əlaqələrimizin möhkəmlənməsində xüsusi rol oynadığını qeyd edib və bu görüşlərin ölkələrimizi bir-birinə daha da yaxın etdiyini bildirib.

Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Güler bildirib ki, bir millət, iki dövlət olan Türkiyə ilə Azərbaycan ortaq tarixə, mədəniyyətə malikdirlər və ölkələrimiz arasında strateji iş birliyi gündən-günə möhkəmlənməkdədir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Rusiya Federasiyasının Jurnalistlər İttifaqının sədri Vladimir Solovyovu qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 20 noyabr tarixli Sərəncamı ilə Azərbaycan ədliyyəsinin yaranmasının 100 illiyi münasibətilə və hakim vəzifəsini nümunəvi yerinə yetirdiklərinə, ədliyyə orqanlarında qulluq keçərkən fərqləndiklərinə, ədliyyə sistemində elm, səhiyyə sahələrinin inkişaf etdirilməsində və cəza-icra siyasətinin həyata keçirilməsində fəal iştiraklarına görə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının məhkəmə və ədliyyə orqanlarında çalışan əməkdaşlar da vardır.

**Əliyev Alı Yusif oğlu**
**Kərimov Səyyub Həsən oğlu**
**Məmmədov Hüseyn Məmməd oğlu**
**Muradov Hicran Xasay oğlu**

"Tərəqqi" medalı ilə,

**Fərəcova Aybəniz Məhərrəm qızı**
**Fərzəliyev Rəşad Xaliyəddin oğlu**
**Nağıyev Həsən Xanəli oğlu**

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilmişlər.

## Kəngərli rayonunda qapalı suvarma şəbəkəsi istifadəyə verilib

Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində davamlı tədbirlər görülür. Kənd təsərrüfatı inkişaf etdirilir, məhsul istehsalı artırılır. Bu işlərin həyata keçirilməsində meliorasiya və irriqasiya tədbirləri xüsusi yer tutur. Hazırda muxtar respublikanın torpaq ehtiyatından səmərəli istifadə olunur, mütərəqqi suvarma metodları tətbiq edilir, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır.





Noyabrın 20-də Kəngərli rayonunun Böyükdüz kəndində qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Məlumat verilmişdir ki, "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin 616 hektar əkin sahəsini əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisi yerli mütəxəssislər tərəfindən qısa müddətdə və keyfiyyətlə aparılmışdır. Layihəyə uyğun olaraq ərazidə 2850 metr magistral xətt, 8300 metr ana xətt, uzunluğu 61 min 310 metr olan paylayıcı suvarma şəbəkəsi və 6300 metr suboşaldıcı xətt çəkilmiş, 594 hidrant quraşdırılmışdır. Ana xəttin dayanıqlığını artırmaq məqsədilə borunun yeri 40 santimetr qazılaraq çınqıl qatı verilmiş və yarıya qədər torpaqla doldurulmuşdur. Suyun sahəyə növbə ilə verilməsini təmin etmək üçün xətlərin üzərində 11 siyirtmə qoyulmuşdur. Tikinti işləri ərazinin relyefi nəzərə alınaraq aparılmışdır ki, bu da suyun əkin sahələrinə itkisiz və öz axını ilə çatdırılmasına imkan verəcəkdir. Qapalı suvarma şəbəkəsi saniyədə əraziyə 1100 litr su ötürmək gücünə malikdir.

Qapalı suvarma şəbəkəsinin əhatə etdiyi ərazidə meliorativ tədbirlər də görülmüş, qrunt sularının kənarlaşdırılması üçün 5,6 kilometr uzunluğunda açıq drenaj xətti çəkilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qapalı suvarma şəbəkəsinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması münasibətilə tədbir iştirakçılarını təbrik edərək demişdir: Bu gün ölkə Prezidenti müxtəlif sahələrin inkişafı ilə bağlı sərəncamlar imzalayır, dövlət proqramları qəbul olunaraq həyata keçirilir. Qəbul olunmuş dövlət proqramları içərisində meliorasiya və kənd təsərrüfatı tədbirləri xüsusi yer tutur. Çünki ölkə o zaman tam müstəqil olur ki, orada ərzaq və enerji təhlükəsizliyi təmin olunsun. Bu gün ölkəmizdə ərzaq və enerji təhlükəsizliyinin təmin olunması sahəsində mühüm tədbirlər görülür. Muxtar respublikada da ərzaq və enerji təhlükəsizliyi diqqətdə saxlanılır.



Ali Məclisin Sədri demişdir: Qapalı suvarma şəbəkəsinin quraşdırıldığı ərazilər əkin dövriyyəsinə qatılmış yeni torpaqlardır. Ərazidən torpaq nümunələri götürülərək araşdırılmış, 2 min hektarı əhatə edən toxumçuluq təsərrüfatı yaradılmış, təsərrüfat lazımi texnikalarla təmin edilmiş, mütərəqqi suvarma şəbəkəsinin qurulmasına başlanılmışdır. Həyata keçirilən tədbirlər torpağa ikinci həyat verir. Bu gün muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasında yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması və dəmyə əkinçiliyinə üstünlük verilməsi mühüm yer tutur. Çünki hər il muxtar respublikada əhali artımı müşahidə olunur. Əhalinin ərzaqla təminatı isə kənd təsərrüfatının inkişafından asılıdır. Bu gün qapalı suvarma şəbəkəsinin istifadəyə verilməsi ilə 600 hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Digər bir tərəfdən isə bu torpaqlarda istehsal olunmuş məhsuldan muxtar respublikada hər bir ailə istifadə edəcəkdir. Bununla yanaşı, daxili bazar qorunacaq, vəsait ölkəmizdə qalacaq, yeni iş yerləri açılacaqdır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada torpaqlardan səmərəli istifadə olunması daxili tələbatı ödəməklə yanaşı, həm də ixrac imkanlarını artırır. Ona görə də muxtar respublikanın aid təşkilatları yaradılmış şəraitdən düzgün istifadə etməli, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması bundan sonra da davam etdirilməli, kənd təsərrüfatının inkişafına diqqət artırılmalıdır.

Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsinin tikintisinin yerli mütəxəssislər tərəfindən keyfiyyətlə aparıldığını bildirmiş, bu işdə əməyi olanlara təşəkkür etmiş və hədiyyələrlə mükafatlandırmışdır.

Sonra Ali Məclisin Sədri qapalı suvarma şəbəkəsini işə salmışdır.

Bildirilmişdir ki, hazırda "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyətinin 1012 hektar torpaq sahəsində taxıl əkilmişdir. Əkinin şırım üsulu ilə aparılması əkilməyən bu torpaqlarda şoranlaşmanın qarşısının alınmasına və məhsuldarlığa müsbət təsir göstərir.

Ali Məclisin Sədri muxtar respublikada qapalı suvarma şəbəkəsinin qurulmasının davam etdirilməsi, toxumçuluq təsərrüfatında "Araz" Elm-İstehsalat Birliyi tərəfindən yeni toxum sortlarının sınaq əkininin aparılması və ərazidə yaşıllıq zolaqlarının salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Yeni Azərbaycan Partiyası – 26*

# Ümumxalq partiyası

*21 noyabr 1992-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Ölkəni bürümüş dərin siyasi, iqtisadi, sosial böhran xalqın qabaqcıl hissəsi olan ziyalıları, tanınmış insanları son dərəcə narahat edirdi. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin ətrafında birləşdilər.*

1992-ci il oktyabrın 24-də ziyalıların “Səs” qəzetində ulu öndər Heydər Əliyevə “Azərbaycan sizin sözünüzü gözləyir” başlıqlı müraciətinə cavab məktubunda ümummilli liderin yaranmış vəziyyəti dərindən təhlil etməsi və çıxış yolunu göstərməsi noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılmasını şərtləndirdi. Ölkəmizin ayrı-ayrı bölgələrindən cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən 550 nümayəndənin iştirakı ilə Naxçıvanda partiyanın təsis konfransı keçirildi. Təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsi qəbul edildi. Konfransda ulu öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Beləliklə, müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Ulu öndər Heydər Əliyevin 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçilməsi Yeni Azərbaycan Partiyasının fəaliyyətində yeni dövrün əsasını qoydu. Həmin tarixdən Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvəyə çevrilərək ictimai-siyasi həyatın bütün sahələrində yüksək fəallıq nümayiş etdirməyə başlamışdı. Keçirilən seçkilərdə Yeni Azərbaycan Partiyası namizədlərinin üstünlük qazanmaları partiyaya olan ümumxalq inamını bir daha təsdiqləmişdir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, uzaqgörənliyi və müdrikliyi sayəsində Yeni Azərbaycan Partiyası bu gün Azərbaycanın nüfuzlu siyasi təşkilatına çevrilmişdir.

Bu gün ölkəmizin əsas aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının qüdrətini təmin edən çox mühüm amillərdən biri partiyanın təməl prinsipləridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Heydər Əliyev və Yeni Azərbaycan Partiyası bizim siyasi xəttimizdir. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının, müstəqil Azərbaycan dövlətinin qurucusudur. Çünki 1993-cü ildən başlayaraq ölkədə bütün xoşagəlməz hallara son qoyuldu, sabitlik yarandı, vətəndaş müharibəsinə son qoyuldu, inkişaf, sabitlik, quruculuq, dövlətçilik dövrü başlandı. Yeni Azərbaycan Partiyasının əsas ideoloji dayaqları müstəqillikdir, azərbaycançılıqdır, müasirlikdir, inkişafdır, sosial rifahdır, iqtisadi və siyasi islahatlardır”.***

Müstəqilliyimizin ilk illərində yaşanan böhran ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra uğurlu daxili və xarici siyasəti nəticəsində aradan qaldırıldı. Xaos, anarxiya, özbaşınalığın sabitlik ilə əvəzlənməsi Azərbaycanın iqtisadi baxımdan qüdrətlənməsinə, siyasi mövqeyinin möhkəmlənməsinə səbəb oldu. ***“İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir”***, – deyən ümummilli lider Heydər Əliyev uğurlu iqtisadi islahatları ilə ölkəmizi tənəzzüldən tərəqqi yoluna çıxardı. Azərbaycanda iqtisadi inkişafın təməli qoyuldu. Ölkəmiz çox qısa zamanda böyük investisiyalar məkanına çevrildi. Təbii ki, iqtisadiyyatın inkişafı əhalinin sosial rifah halının yaxşılaşmasına da öz müsbət təsirini göstərdi. Xalqın gələcəyə inamı gündən-günə artdı. İlk gündən hüquqi, dünyəvi, sivil dövlət quruculuğu yolunu tutan Azərbaycanda söz, mətbuat azadlığı təmin edildi, insan hüquqlarının qorunması sahəsində mühüm addımlar atıldı, ölkədə çoxpartiyalı sistem yaradıldı, seçki praktikası ildən-ilə daha da təkmilləşdirildi. Təbii ki, bütün bunlar Azərbaycanın dünya birliyində öz layiqli yerini tutmasına səbəb oldu. Bütün bu uğurların əldə olunmasında Yeni Azərbaycan Partiyasının rolu böyükdür.

Bu gün Azərbaycan xalqının Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin ətrafında sıx birləşməsi, həyata keçirilən siyasəti dəstəkləməsi Yeni Azərbaycan Partiyasına olan inam və məhəbbəti gücləndirib. Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev ümummilli lider Heydər Əliyevin yaratdığı inkişaf konsepsiyasına uyğun olaraq yeni dövrün reallıqlarına uyğun çevik idarəetmə platforması formalaşdırıb. Bu, Azərbaycanın milli dövlətçiliyinin möhkəmlənməsini təmin etməklə bərabər, bölgə ölkələrinin geniş əməkdaşlıq vektorlarının mühüm prinsiplərini də özündə ehtiva edir.

Yüz minlərlə yeni iş yerlərinin açılması, əməkhaqlarının, təqaüd və müavinətlərin dəfələrlə artırılması, ölkəmizdə ildən-ilə geniş vüsət alan quruculuq-abadlıq işləri və infrastruktur layihələri hər bir vətəndaşa layiqli həyat təmin etmək üçün əlverişli şərait yaradıb. Azərbaycan bütün sosial-iqtisadi göstəricilərə görə regionun lider dövlətinə çevrilib. Ümumbəşəri dəyərlərin daşıyıcısı olan Yeni Azərbaycan Partiyası bir tərəfdən beynəlxalq aləmdə siyasi əməkdaşlıq, sivilizasiyaların dialoqunun tərəfdarı kimi çıxış edirsə, digər tərəfdən milli birliyin möhkəmləndirilməsi, Azərbaycançılıq ideologiyasının təbliği və inkişafı istiqamətində mühüm işlər görür. Bütün bunlar partiyanın dünyanın tanınmış siyasi təşkilatları arasında nüfuzunu yüksəldir, Azərbaycan cəmiyyətindəki mövqeyini möhkəmləndirir, siyasi qüdrətini artırır.

Yeni Azərbaycan Partiyasının məhz Naxçıvanda yaranması, partiyanın rəhbəri, ulu öndər Heydər Əliyevin xalqın çağırışı və təkidli tələbləri ilə Azərbaycanda siyasi hakimiyyətə buradan qayıdışı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının təşəkkül tapıb formalaşmasında müstəsna rol oynamışdır. Ümummilli liderimizin müəyyən etdiyi prinsiplərə əsaslanmaqla hər bir partiya üzvü muxtar respublikamızda aparılan dövlətçilik və quruculuq işlərində yaxından iştirak edir.

Ulu öndər deyirdi: ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin”.***

Naxçıvan Muxtar Respublikasında sosial həyatın bütün sahələrində uğurların qazanılmasında bir başlıca səbəb vardır: o da ulu öndərimizin yoluna sədaqət və bu yolun davam etdirilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada həyata keçirilən böyük quruculuq siyasəti, yaranmış mövcud ictimai-siyasi sabitlik və əhali rifahının davamlı yüksəlməsi seçilən düzgün siyasi xəttin bəhrəsidir. Bu siyasətin mühüm nəticəsi olaraq Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıralarında cəmləşən partiya üzvləri, siyasi cəhətdən fəal gənclər və qadınlar muxtar respublikanın sosial-iqtisadi və ictimai-siyasi həyatında əsas hərəkətverici qüvvəyə çevrilmişdir.

Yarandığı ilk günlərdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı 1118 nəfəri öz sıralarında birləşdirirdisə, bu gün 55 minə yaxın partiya üzvünü öz sıralarında birləşdirmişdir ki, bu da muxtar respublikada siyasi aktiv əhalinin 20,2 faizini təşkil edir. Partiyanın rayon (şəhər) təşkilatlarında 501 ərazi ilk təşkilatı fəaliyyət göstərir. Üzvlərdən 22 min 344-ü, yəni 40,9 faizi gənclər, 23 min 670-i, yəni 43,3 faizi isə qadınlardır. Cari ildə partiya sıralarına 932 üzv qəbul olunmuşdur. Partiya üzvlərindən 178-i fəlsəfə doktoru, 27-si elmlər doktorudur. Yeni Azərbaycan Partiyası muxtar respublika təşkilatının üzvlərindən 2-si Azərbaycan Respublikasının Milli Məclisində, 41-i Naxçıvan Muxtar Respublikası Ali Məclisində, 1114-ü isə bələdiyyələrdə təmsil olunur.

Blokada şəraitində, böyük çətinliklər hesabına yaranmış Yeni Azərbaycan Partiyası hazırda ölkəmizin və onun Naxçıvan Muxtar Respublikasının sürətli və davamlı inkişafının əsas təminatçısıdır. Bu gün sosial-iqtisadi inkişafın davamlı xarakter daşıması, milli dövlətçiliyin qorunması Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının təməl prinsiplərindəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Müasir şəraitdə partiya üzvlərimizin qarşısında mühüm vəzifələr dayanır. “Sağlam cəmiyyət – güclü dövlət” sistemi üzrə doğma Azərbaycanımızın inkişafına çalışmalı, Yeni Azərbaycan Partiyasının üzvü kimi şərəfli adı öz əməyimizlə doğrultmalıyıq. Bizim məsuliyyətimiz – bizim vəzifəmizdir. Vəzifə – partiya quruculuğunda və hər birimizin konkret fəaliyyət sahələrində işə yaradıcı yanaşmaqdan, dəqiq, dürüst olmaqdan, ümummilli lider Heydər Əliyevin tövsiyə etdiyi kimi işləməkdən və ölkəmizi onun görmək istədiyi kimi qurub-yaratmaqdan ibarətdir”.***

***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi***

# Yeni Azərbaycan Partiyasının yaradılmasının 26-cı ildönümü qeyd olunub



Bu münasibətlə Naxçıvan Dövlət Universitetində keçirilən konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov 1992-ci ildə əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan partiyanın yaranma zərurətindən, keçdiyi inkişaf yolundan danışıb. Qeyd edilib ki, tarixi zərurət nəticəsində yaranan Yeni Azərbaycan Partiyası çox qısa müddətdən sonra Azərbaycanda iqtidar partiyasına çevrilib və o zamandan da məhz xalqımızın rifahı, dövlətimizin inkişafı naminə geniş fəaliyyəti ilə cəmiyyətin hər bir təbəqəsinin möhkəm dəstəyini qazanıb. Bu gün ölkəmizin sürətli iqtisadi inkişaf yoluna qədəm qoyması məhz ulu öndərin düşünülmüş siyasətinin Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.

Partiyanın Universitet ərazi ilk təşkilatının sədri, dosent Asəf Əliyev “Yeni Azərbaycan Partiyasının dünəni və bu günü” mövzusunda çıxışında qeyd edib ki, universitetin professor-müəllim və tələbə kollektivinin ictimai-siyasi cəhətdən fəal hissəsi tam şəkildə Yeni Azərbaycan Partiyasının sıralarında, ərazi ilk təşkilatında birləşib.

Bildirilib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının ən böyük ərazi ilk təşkilatı olmaqla, öz sıralarında 1939 nəfər partiya üzvünü birləşdirən Universitet ərazi ilk təşkilatı üzvlərinin 181 nəfərini müəllimlər, 41-ni tədrisə köməkçi heyət, 1717-ni isə tələbələr təşkil edir. Üzvlərdən 3 nəfəri Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 7-si elmlər doktoru, 89-u fəlsəfə doktorudur, 53 nəfər partiya üzvü isə ölkənin və muxtar respublikanın ali dövlət mükafatları, fəxri adları, orden və medalları ilə təltif olunub. Muxtar respublikamızda gəncliyə göstərilən yüksək dövlət qayğısının ifadəsidir ki, ərazi partiya təşkilatının 89 faizini gənclər təşkil edir.

Elektroenergetika mühəndisliyi ixtisasının II kurs tələbəsi Asim Abdulla “Yeni Azərbaycan Partiyası və Azərbaycan gəncliyi” mövzusunda çıxış edərək qeyd edib ki, dahi rəhbərin zəngin dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. Ulu öndər hakimiyyətdə olduğu hər iki dövrdə Azərbaycan gənclərinin müasir tələblərə cavab verən, inkişaf etmiş, yüksək intellektli qüvvə kimi formalaşması üçün çalışıb.

Tələbələrə partiyaya üzvlük vəsiqələri təqdim olunduqdan sonra Yeni Azərbaycan Partiyasının 26 illik fəaliyyətini özündə əks etdirən videoçarx nümayiş olunub.

İncəsənət fakültəsi tələbələrinin ifasında musiqi, rəqs nümunələri tədbiri daha da yaddaqalan edib.

***Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında keçirilən tədbiri giriş sözü ilə partiyanın Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov açaraq məruzə ilə çıxış edib.***

Qeyd olunub ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranıb. 1992-ci ilin 21 noyabrında muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində Azərbaycanın hər yerindən gələn 550 nəfər nümayəndənin iştirak etdiyi təsis konfransında Yeni Azərbaycan Partiyası yaradılıb.

Bildirilib ki, 1993-cü il yanvarın 30-da ulu öndərimiz Heydər Əliyevin iştirakı ilə partiyanın Babək Rayon Təşkilatının təsis konfransı keçirilib. Bu gün təşkilat sıralarında 6836 nəfər partiya üzvünü birləşdirir.



Vurğulanıb ki, partiyanın əldə etdiyi uğurlar ötən müddət ərzində Babək rayonunu da yeni inkişaf mərhələsinə qovuşdurub. Bu il 40 yaşını qeyd edən Babək rayonunda kompleks quruculuq işləri aparılıb, iqtisadi və sosial sahədə yeni uğurlar qazanılıb. Rayon mərkəzi olan Babək qəsəbəsinin siması dəyişilib, müasir rayon mərkəzinə çevrilib. Bu dövrdə ucqar dağ və sərhəd yaşayış məntəqələri olan Aşağı və Yuxarı Buzqov kəndləri də abadlaşdırılıb, kənd təsərrüfatı, təhsil, mədəniyyət, səhiyyə sahələrində mühüm tədbirlər həyata keçirilib.

Tədbirdə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini, şura üzvü Nihal Məmmədov, partiyanın Babək Rayon Təşkilatı Payız kənd ilk partiya təşkilatının sədri Elxan Babazadə və Şəkərabad kənd ilk partiya təşkilatının sədri, şura üzvü, Azərbaycan Respublikasının Əməkdar müəllimi Sədaqət Mahmudov çıxış ediblər.

Sonda partiya sıralarına yeni qəbul olunan bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

* * *

Sədərək Rayon Mədəniyyət Evində təşkil edilən tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov bildirib ki, ötən illər ərzində Azərbaycanın bütün bölgələrini əhatə edən iqtisadi və sosial islahatlar Naxçıvan Muxtar Respublikasında da dinamik inkişafa səbəb olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə 1995-ci ildən başlanan böyük quruculuq işləri xalqa, dövlətə və Heydər Əliyev ideyalarına sədaqətin bariz nümunəsidir.



Tədbirdə rayon təşkilatının idarə heyətinin üzvü Nəsimi Rzayev, Qaraağac kənd ərazi ilk partiya təşkilatının sədri Ayaz Əliyev, partiya fəalı Fatma Abbaszadə çıxış ediblər. Vurğulayıblar ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi, istiqlalımızın dönməzliyinin təmin olunması, ölkədə həyata keçirilən geniş və çoxşaxəli islahatlar məhz Yeni Azərbaycan Partiyasının yaradıcısı, müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin adı ilə bağlıdır. Həyata keçirilən siyasət iqtidar partiyası kimi onun nüfuzunu gündən-günə daha da artırır.

Bir qrup gəncə Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim olunduqdan sonra tədbir iştirakçıları ağacəkmə aksiyasında iştirak ediblər.

**Xəbərlər şöbəsi**

*İnkişaf edən bölgələrimiz*

# Abadlaşan, gözəlləşən Şərurum

*Dünyaya göz açdığım, mənim üçün çox əziz olan Şərur rayonu haqqında yazı qələmə almaq istəyi mənə bir hadisəni xatırlatdı.*

Hələ 1999-cu ildə təhsil aldığım Gəncə Dövlət Universitetində ilk dərs günü müəllimimin: – Qızım, sən hansı bölgədənsən? – sualına çox böyük qürurla: "Naxçıvandanam", – dedim. Qürurlanmağa səbəbim çox idi... Qəhrəmanlar yurdunun, dahilər yetişdirən bir torpağın övladı idim çünki. Müəllimin mənə tərəf baxıb: – Naxçıvanda yağış yağanda yenə dizə kimi palçığa batıb yeriyə bilmirsiz? – deməsi məni çox məyus etdi. Sonradan bildim ki, indi kürsüdə dayanan həmin müəllim vaxtilə Naxçıvanda işləyib. Bu qədim diyarın necə çətin şəraitdə yaşadığının şahidi olub. Qazsız, işıqsız, bərbad vəziyyətdəki kəndləri görüb. Lakin şəraitsiz və çətin vəziyyətdə yaşayan naxçıvanlılar onun yaddaşında səmimi, qonaqpərvər, mübariz və cəsur insanlar kimi qalıb.

Naxçıvandan ayrı Azərbaycanın bir çox rayon və kəndlərində yaşadığım 13 il ərzində ildə bir dəfə öz yurduma qonaq gəlirdim. Hər dəfə təyyarə Naxçıvan səmasına çatanda gördüyüm mənzərə qəlbimi sevinc hissləri ilə doldururdu. Gözəlləşən, böyüyən, gülüstana çevrilən yurdun sakini olmaq çox qürurverici idir.

Artıq üç ildir ki, öz doğma yurdumdayam. Bu qədim diyar o qədər gözəl, təmizdir ki, insan bu mədəniyyəti, güllü, çiçəkli bağçaları, yeni tikililəri, qədim abidələrin bərpa olunmuş vəziyyətlərini tərif etməyə söz tapa bilmir. Vətəninin saatbasaat, günbəgün bütün yönlərdə yeniləşdiyini, bütövlükdə, boy atdığını görmək dünyanın ən böyük xoşbəxtliyidir. İftixar hissi ilə demək olar ki, bu gün Naxçıvan Muxtar Respublikası yüksəliş dövrünü yaşayır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikanın iqtisadiyyatı ilbəil möhkəmlənir, əhalinin yaşayış səviyyəsi yüksəlir, şəhər və kəndlərdə quruculuq işləri geniş vüsət alır. Bütün bunları muxtar respublikamızın inzibati ərazi bölgüsünə görə ən böyük bölgəsi olan Şərur rayonunun timsalında da görmək mümkündür. Əslən bu rayondan olan biri üçün Şərurun illər öncəki vəziyyəti ilə müasir dövrünü müqayisə etmək heç də çətin deyil.

Muxtar respublikamızın bütün bölgələrində vüsət alan geniş quruculuq prosesləri bu rayonun da ucqar dağ kəndlərinin, sərhəd yaşayış məntəqələrinin simasını dəyişib. Ən kiçik dağ kəndlərində belə, sosial problemlər öz həllini tapıb. Hər cür şəraitə malik müasirtipli təhsil ocaqları, tibb məntəqələri, mədəniyyət obyektləri ucaldılıb. Bir vaxtlar yolu, izi olmayan dağ kəndlərinə geniş abad yollar salınıb, dünənə kimi qonşu kəndlərlə əlaqəsi olmayan, sərhəd yaşayış məntəqələri indi dünyanın istənilən yeri ilə rabitə əlaqəsi yarada bilir.

Vaxtilə ən adi mədəni-məişət şəraiti olmayan Şərur rayonunun Havuş kəndində 70 illik sovetlər dövründə kəndin insanları hər hansı kiçik bir məsələ üçün uzun məsafələr qət edib rayon mərkəzinə və şəhərə üz tuturdular. Kiminsə qəflətən ağır xəstələnməsi isə bir çox hallarda faciə ilə nəticələnirdi. Yaşlı kənd sakinləri deyir ki, əqrəb-ilan sancması zamanı ilkin tibbi yardımdan yararlana bilmədiklərinə görə sakinlər türkəçarəyə üz tutur, bu da bir çox hallarda mənfi nəticələrə yol açırdı. Bağlarda yetişən məhsulları bazara çıxarmaq, ondan gəlir əldə etmək də müşkül məsələ idi. Qış aylarında isə ətraf kəndlərlə əlaqə, demək olar ki, tamamilə kəsilirdi. Yəni Havuş, necə deyərlər, Allah ümidinə qalmışdı. Ancaq ulu öndərimizin Naxçıvana gəlişindən sonrakı illərdə havuşlular da diqqət və qayğıdan bəhrələnməyə başladılar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ucqar dağ kəndlərinə xüsusi diqqət və qayğısının bəhrəsi olaraq kənd fasiləsiz elektrik enerjisi, mavi yanacaqla təmin edildi, yollar abadlaşdırıldı, şəhərdəki infrastruktura bərabər obyektlər istifadəyə verildi. Yanacaq




olmaması səbəbindən payız aylarında balta səsləri gələn bağlar yenidən dirçəldildi, əkin sahələrində ən müasir texnikaların səsləri eşidildi. Təbii ki, bütün bunlar Havuş sakinlərini daha möhkəm tellərlə öz el-obasına bağladı, kənddə yeni evlərin-ocaqların sayı artdı. Ucaldılan müasirtipli məktəb, tibb məntəqəsi, müəllimlər və burada xidmət edən hərbçilər üçün tikilən yeni evlər, yaradılan hərtərəfli sosial şərait havuşluların düşmənin bir addımlığında yerləşən evlərində əminliklə yaşamalarına imkan yaratdı.

Rayonun digər dağ kəndi olan Yuxarı Yaycı da bu gün gözəlliyi ilə hər kəsi özünə cəlb edir. Dağların bumbuz bulaqları, tərtəmiz havası, min bir dərdin dərmanı olan bitkiləri, al-əlvan çiçəkləri və bunlara bir az da xüsusilik verən saf, səmimi insanları yaşayış məntəqəsinin gözəlliyinə gözəllik qatır. Yaraşıqlı evlər, abad küçələr, axarlıbaxarlı həyətlər, bağ-bağçalar, bol məhsullu əkin sahələri bu dağ kəndində məskunlaşan insanların yaşayışından, xoş güzəranından soraq verir. İstifadəyə verilən yeni obyektlər, abadlaşan yollar kənd sakinlərinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində atılmış uğurlu addımlardandır.



Ucqar dağ kəndində, ermənilərlə sərhəddə düşmənə gözdağı olan bu yaşayış məntəqəsinin sakinləri həyata nikbin baxır, yaradılan şəraitdən maksimum bəhrələnirlər.

Dövlətimizin bu istiqamətdə apardığı siyasət Şərur rayonunun Axura kəndində də uğurla həyata keçirilir. 2014-cü ildə bəxş edilmiş bir neçə quruculuq ərmağanı kənd sakinlərində xoş ovqat yaradıb, onları doğma torpağa qırılmaz tellərlə bağlayıb. Kənddəki xidmət mərkəzində yüksək ticarət və məişət xidmətləri göstərilir, Dizədən Axurayadək olan avtomobil yolu və yolun üstündəki iki körpü yenidən qurulub.

Abadlaşan yaşayış məntəqələrimiz sırasında dağ kəndi Tənənəmi də göstərmək olar. Bu kənddə 2006-cı ildə yaraşıqlı məktəb binası inşa olunub. Yaradılan kənd mərkəzində icra nümayəndəliyi, bələdiyyə, poçt, kitabxana və tibb məntəqəsi yerləşir. Burada gözoxşayan park salınıb. Tarixi abidə, kəhriz bərpa edilərək istifadəyə verilib.

Şərur rayonunun Şahbulaq, Yuxarı Yaycı, Havuş, Həmzəli, Gümüşlü, Axura kimi dağ kəndləri ilə yanaşı, Arazqırağı yaşayış məntəqələri – Qarahəsənli, Ərəbyengicə, Çəmənli, İbadulla da yeni günün quruculuq günəşinin şəfəqlərindən pay alıb. Rayon mərkəzindən 10-12 kilometr aralıda yerləşən həmin kəndlərdə də şəhərdən seçilməyən bir mənzərə var.

Son illər Şərurun böyük və qədim kəndlərindən biri olan Yengicə, sözün həqiqi mənasında, əsl inkişaf yoluna qədəm qoyub. Kənddə yeniliklər çoxdur. Müasir tikililərlə yanaşı, tariximizi özündə əks etdirən abidələrimiz də dövlət rəhbərlərimizin qayğısı ilə yenidən qurularaq əvvəlki görkəminə gətirilib. Kənddə yerləşən qədim Şərq hamamı muxtar respublika rəhbərinin göstərişi ilə bərpa olunub. Muxtar respublikamızda aparılan quruculuq işlərindən pay



alan bu kənd tamamilə yenidən qurulub. Aparılan yaşıllaşdırma işləri, keçmişdəki palçıq hörgüləri əvəzləyən daş hasarlar, müasir işıqlandırma sistemləri insanda xoş təəssürat yaradır. Yaz-yay boyu hər tərəfi gül-çiçəklərlə, yaşıllıqlarla əhatə olunmuş yaraşıqlı məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası bura xüsusi gözəllik bəxş edib.

Etiraf edək ki, qurulub-yaradılanları gördükcə bir ali həqiqəti bütün aydınlığı ilə dərk edirsən: 70 illik sovet dönəmində xalqımızın sərvətləri amansızcasına istismar edilir, əvəzində isə götürülən mənfəətdən ölkəmizin inkişafına heç bir vəsait sərf olunmur, ya da xəsisliklə cüzi vəsait ayrılırdı. Heç uzağa getməyək, doğma Azərbaycanımızın bir parçası olan qədim Naxçıvanımızı götürək. Ucqar dağ kəndlərinin, indi sərhəd yaşayış məntəqəsi olan yurd yerlərinin 30 il əvvəlki vaxtını yada salaq. O yerləri ki uzun illər gözdənuzaq, könüldəniraq qalmışdı. Unutqanlıq ucbatından, laqeydlik üzündən evlərin sırası seyrəlmiş, düzəni pozulmuş, şənliyi dağılmışdı. Ən adi məişət qayğıları məngənəsində əziyyət çəkən adamlar üzü şəhərə və nisbətən mədəni, mənəvi həyat ahəngi olan kəndlərə üz tutmuşdular. Boşalan belə yurd yerlərinin biçilməyən biçənəklərini, əkilməyən torpaqlarını fürsət gözləyən namərd qonşularımız gözaltı etmişdi.

Muxtar respublikada neçə-neçə ucqar dağ kəndinə son illərdəki qədər qayğı göstərilsəydi, həmin




kəndlərdə yaşayan insanların dərdləri, problemləri ilə indiki kimi maraqlanılsa idi, yolları abadlaşdırılıb, məktəb, tibb məntəqəsi, mədəniyyət obyektləri tikilsə, o yerlərə su, rabitə xətti çəkilsə idi, indi o yurd yerlərimiz daha da böyüyərdi. Orda yaşayan ailələrin sayı daha çox olardı.

Nə gözəl ki keçmişlə bu günü müqayisə sevindirici, qürurvericidir. Doğma diyarımızda 1995-ci ildən başlanan intensiv inkişaf prosesi Şərur rayonunu da əhatə edib. Bu rayon davamlı qayğı və diqqət sayəsində, sakinlərin qurub-yaratmaq əzmi ilə az öncə söhbət açdığımız yaxın keçmişdə xəyala belə, gəlməyən sürətli inkişaf yolu keçib, gözəl bir məkana çevrilib.

Rayonun sosial-iqtisadi inkişafını əsas kapitala yönəldilmiş investisiyalarda, adambaşına düşən əhali gəlirlərindəki artımda da aydın müşahidə etmək olar. Şərurda sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması, istehsal müəssisələrinin tikintisi və yeni iş yerlərinin açılması istiqamətində də xeyli iş görülüb. Dövlət dəstəyi ilə cari ildə 10-a yaxın istehsal və emal müəssisəsi yaradılıb, 400-dən artıq iş yeri açılıb.

İlin əvvəlindən indiyədək 26 müxtəlif təyinatlı obyektin tikintisi, yaxud yenidən qurulması başa çatdırılıb, 23 obyektdə işlər davam etdirilir. Şərurun müasirləşən kəndlərində olarkən yeni tikilən məktəb binaları, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları sayəsində bu yurd yerlərinin simasının nə qədər dəyişdiyini sezməmək mümkün deyil.

Şərur şəhərinin və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin çəkilişi də muxtar respublikada insan amilinə verilən yüksək qiymətin bariz ifadəsidir.

Bu gün rayonun Xanlıqlar-Vərməziyar-Ərəbyengicə-Qarahəsənli-Çəmənli, İbadulla-Qışlaqabbas avtomobil yolları yenidən qurulub, 2,1 kilometrlik Siyaqut-Kosacan avtomobil yolunda isə bu işlər artıq tamamlanmaqdadır. Şərur rayonunun bir sıra kəndlərində əvvəllər də olduğum üçün inamla deyə bilərəm ki, rayondakı bugünkü tərəqqini görmək üçün təkcə iqtisadiyyatın, abadlığın, mədəniyyətin inkişaf göstəricisi olan bu yollarla çox yox, bircə dəfə gedib-gəlmək kifayətdir.

Ənənəvi kənd təsərrüfatı rayonu olan Şərurda iqtisadiyyatın əsasını təşkil edən aqrar sahə daim diqqət mərkəzində saxlanılır. Rayonda taxılçılığın, tütünçülüyün, meyvətərəvəzçiliyin, heyvandarlığın inkişafı istiqamətində qazanılan nailiyyətlər barədə burada tez-tez həmsöhbət olduğumuz halal zəhmət adamlarının dilindən eşitdikcə torpağın ən sadiq dolanışıq yeri, ruzi-bərəkət ünvanı olduğunu bir daha dərk edirsən. Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən fermerlər, torpaq mülkiyyətçiləri, emal müəssisələri daha yüksək nəticələr əldə etmək üçün səylə çalışırlar. Rayon sakinləri tikinti-quruculuq, abadlıq sahəsindəki işlərdə əllərindən gələn köməkliyi əsirgəmirlər. Bir sözlə, şərurlular – bu münbit torpağın, bərəkətli yurdun övladları yenə də bolluq həvəsi ilə çalışır, muxtar respublika iqtisadiyyatının yüksəlişinə sanballı töhfələr verir, halal zəhmətləri ilə özlərinin firavan həyatlarını, xoş güzəranlarını təmin edirlər. Bu gün şərurluları yurda, torpağa ikiqat bağlayan səbəblərdən biri də sərhəd kəndlərinin qüdrətli ordumuz tərəfindən rəşadətlə qorunmasıdır. Şərurun Günnüt kəndi və 11 min hektardan artıq ərazisinin 26 ildən sonra erməni işğalından azad edilməsi hər bir şərurluda böyük ruh yüksəkliyi yaradıb.

*Bütün bunlar muxtar respublikada ümummilli lider Heydər Əliyev yolunun sədaqətlə, inamla davam etdirilməsinin bəhrələridir. Bu, görkəmli dövlət xadiminin Naxçıvanla bağlı arzu və istəklərinin ideal şəkildə gerçəkləşməsi deməkdir. Heç şübhəsiz ki, uğurlu, işıqlı sabahlara aparan yolda inamla irəliləyən şərurlular da halal zəhmətləri, torpağa bağlılıqları, dövlətçiliyə sədaqətləri ilə bu qədim yurd yerinin daha da çiçəklənməsinə bundan sonra da öz töhfələrini verəcəklər.*

**Ramiyyə ƏKBƏROVA**

Yeni nəşrlər

# Azərbaycan-rus ədəbi əlaqələrinə dəyərli töhfə




***Çoxəsrlik inkişaf tarixinə malik olan zəngin Azərbaycan ədəbiyyatı həmişə başqa xalqların mədəniyyəti və yaradıcılığına qarşı xoşməramlı olub, özünün ədəbi nailiyyətləri ilə digər xalqların ədəbiyyatlarının da inkişafına həmişə böyük təsir göstərib. Azərbaycan ədəbiyyatı özünün inkişaf tarixində başqa xalqların ədəbi nailiyyətlərindən də yeri gəldikcə faydalanıb. Ayrı-ayrı görkəmli ədiblər yaradıcılıqlarında başqa xalqların böyük sənətkarlarının yaradıcılığına, o cümlədən folkloruna müraciət edib, tərcümələrlə bərabər iqtibaslar edib və müxtəlif şəkillərdə bəhrələniblər. XIX əsrdən sonrakı dövrlərdə rus ədəbiyyatı nümayəndələrinin əsərlərinə də maraq güclənib, Avropa və rus ədəbiyyatından ən yaxşı nümunələr Azərbaycan ədəbi mühitinə gətirilib, oxuculara təqdim edilib.***

Sovetlər Birliyi dağıldıqdan və Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra da rus xalqı ilə dostluq münasibətlərini qoruyub saxlayan humanist və dostpərvər xalqımız mütərəqqi rus ədəbiyyatı ənənələrinə və onun görkəmli nümayəndələrinin əsərlərinə müraciət edib. Bu sahədə rus ədəbiyyatı klassiklərindən, onun görkəmli nümayəndələrindən olan tərcümələri, xüsusilə diqqətə çatdırmaq lazımdır. Azərbaycan Respublikası Prezidentinin "Latın qrafikalı Azərbaycan əlifbası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" məlum sərəncamından sonra dünya ədəbiyyatı nümunələrindən tərcümə əsərlərinin nəşri həyata keçirilərkən çoxsaylı rus ədəbiyyatı nümayəndələrinin əsərləri də kütləvi şəkildə nəşr edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"na rus klassiki Nikolay Ostrovskinin "Polad necə bərkidi" bioqrafik romanının da daxil edilməsi rus ədəbiyyatının mütaliəsinə və tədqiqinə göstərilən diqqətin təzahürüdür. Bu baxımdan Azərbaycan alim və ziyalılarının rus ədəbiyyatına dair apardıqları tədqiqatların da əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. Çoxsaylı oxucu kütləsinin diqqətini cəlb edən əsərlərdən biri də tanınmış publisist-politoloq Reyhan Mirzəzadənin "Rus klassikləri haqqında" adlı yeni əsəridir.

Oxuculara Reyhan Mirzəzadə imzası artıq çoxdan tanışdır. Azərbaycan elmi-ictimai fikrini uğurla təmsil edən bu tanınmış ziyalı həm də çoxsaylı əsərlərin müəllifidir. Onun "Azərbaycançılıq və vətənpərvərlik məfkurəsi" əsəri milli ideologiyaya xidmət edən uğurlu əsərlərdəndir. Rus ədəbiyyatına xüsusi rəğbət göstərən, onu böyük elmi maraq və dərin ziyalılıq məharətilə təhlil edən Reyhan Mirzəzadə artıq bu sahədə bir neçə kitabın müəllifi kimi tanınmaqdadır. Onun bir müddət əvvəl çapdan çıxmış "Rus ədəbiyyatı qəlbimin işığında" əsəri rus ədəbiyyatının tədqiqi və Azərbaycan-rus ədəbi əlaqələrinə töhfədir. Müəllif böyük elmi maraqla rus xalqının dünya mədəniyyətinə bəxş etdiyi nadir ədəbi simalardan olan F.Dostoyevski, S.Yesenin, N.Nekrasov, A.S.Puşkin, N.V.Qoqol, V.Jukovski, M.Lomonosov, M.Y.Lermontov, İ.Turgenev, K.Çukovski, A.Bestujev-Marlinski, A.Sumarokov, Nikolay və Lev Qumilyovlar, Anna Axmatova haqqında olan müxtəlif tədqiqat əsərləri ilə çıxış edərək rus ictimai, elmi və ədəbi fikrindən iftixarla söhbət açır.

Müəllifin "Rus klassikləri haqqında" adlanan növbəti əsəri məhz zəngin mədəniyyət beşiklərindən olan Naxçıvanda "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən nəşr edilib. Əsərdə rus xalqının görkəmli yetirmələri haqqında məqalələr toplanıb. Bu şəxsiyyətlərin hər birinin ayrı-ayrılıqda böyük ədəbiyyat və pedaqogika nəhəngi olması hər bir oxucuya məlumdur. Bu mənada, həmin görkəmli şəxsiyyətlərin məşğuliyyət-peşə istiqamətlərinin də müxtəlifliyi diqqəti cəlb edir. Görkəmli şəxsiyyətlər sırasında Aleksandr Sergeyeviç Qriboyedov vaxtilə Azərbaycanda da fəaliyyət göstərmiş diplomat, şair və yazıçı, Anton Pavloviç Çexov böyük yazıçı və rus tənqidi realizminin görkəmli nümayəndəsi, Aleksey Maksimoviç Qorki böyük şair və ictimai xadim, Vladimir Vladimiroviç Mayakovski rus ədəbiyyatı tarixində yeni ədəbi istiqamətin nəhəng başçısı və rus ədəbiyyatının görkəmli nümayəndəsi, əzəmətli şair, Anton Semyonoviç Makarenko isə rus pedaqogika tarixinin ən görkəmli nümayəndələrindən biri və başçısı kimi məşhurdur. Elə əsərin özünəməxsusluğu da ondadır ki, burada müxtəlif sahələri əhatə edən, sanballı tədqiqat və təhlillərlə diqqəti cəlb edən elmi-publisist məqalələr ortaya qoyulmuşdur. Bu da müəllifin həm ədəbiyyatşünaslıq və ədəbi tənqid, həm də pedaqogika sahəsində əhatəli bilik və məlumatlara, sanballı tədqiqatçılıq məharətinə malik olduğunun göstəricisidir. O, ədəbi materialı bir ədəbiyyatşünas-tənqidçi, pedaqoji faktları isə bir pedaqoq-tədqiqatçı kimi araşdırır, təhlil edir.

Diqqəti cəlb edən mühüm amillərdən biri də əsərin səlis, oxunaqlı və üslubi cəhətdən olduqca zəngin, ifadəli dilidir. Publisistikanın imkanlarından bacarıqla istifadə olunan araşdırmada, müəllifin etdiyi tərcümələrdə dil imkanlarından məharətlə istifadə olunub. Buna görə də əsər olduqca oxunaqlı təsir bağışlayır. Hətta elmi-tədqiqat və təqdim bacarığı, hər bir şəxsiyyət haqqında düşüncələrin zənginləşdirilməsində özünü göstərir. Müəllif hər bir şəxsiyyəti məşğuliyyət və peşə sahəsinin müxtəlifliyindən asılı olmayaraq, çox məharətlə tədqiq və təqdim edir, onu bütün incəlikləri, dərinliyi ilə ortaya çıxarır. Seçilən başlıqlar da, tədqiqat və təqdimatın dili də, forma zənginliyi və özünəməxsusluğu da yeni nəşrin təqdirəlayiq səciyyəvi xüsusiyyətlərindəndir.

"Millətin zəkası ilə düşünən şair-diplomat", "Dünya şöhrətli yazıçı və dramaturq", "Dahi rus yazıçısı Aleksey Maksimoviç Qorki", "Qafqaz oğlu, rus övladı – qüdrətli Mayakovski", "Pedaqogikada misligörünməmiş təcrübə" kimi başlıqlar publisistik məharətlə diqqəti cəlb edərək materiala maraqlı giriş və mütaliə sövqü yaradır. Hər bir əsərdə başlıqdan sonra təqdim edilən çoxsaylı epiqraflar da mətnə zənginlik gətirir, onu oxunaqlı edir. Müəllif bəhs etdiyi bir görkəmli şəxsiyyət haqqında təkcə səthi məlumatlarla kifayətlənmir, əhatəli təhlillər aparmaqla həmin şəxsiyyət haqqında dərin təəssürat yaratmağa səy göstərir. Reyhan Mirzəzadə tədqiq etdiyi hər bir rus klassikinin həyat və yaradıcılığının, fəaliyyətinin dərinliklərinə enir, olduqca maraqlı, bənzərsiz fakt və məlumatlar ortaya qoyur. Kitabda, həmçinin Azərbaycan ictimai-ədəbi fikir müstəvisindən bu nəhəng şəxsiyyətlərin irsinə baxış formatı təsbit edilir. Bu baxış müstəvisi bir qədər də genişləndirilərək ən gözəl tərcümə nümunələri və dəyərli faktlar, Azərbaycan alim və yazıçılarının sanballı fikirləri təqdim olunur.

Reyhan Mirzəzadənin ədəbiyyata dərin sevgi ilə yazılmış məqalələri rus ictimai-ədəbi fikrinin görkəmli şəxsiyyətlərinin canlı obrazları, onların yaradıcılıqları haqqında təəssüratlarla zəngindir. Bu məqalələrdə təkcə ədəbi şəxsiyyətlər barəsində quru statistik məlumatlar deyil, onların yaradıcılıqları haqqında maraqlı elmi qənaətlər yer alır. Sanki bu görkəmli fəaliyyət sahiblərinin qələmlərinin səsini eşitməyə, daxildən gələn səslərini dinləməyə sövq edir. Elmi-ədəbi faktlarla zəngin olan əsər həm də fundamental dərs vəsaiti kimi də qəbul edilə bilən bir nəşrdir.

Yeni nəşr geniş oxucu kütləsi, o cümlədən tələbə və müəllimlər, jurnalist və pedaqoqlar, eləcə də digər peşə adamları üçün əhəmiyyətlidir.

**Ramiz QASIMOV**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# İnşa yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi və təşkilatın Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə bu ilin aprel ayından start verilən "Mən muxtar respublikanın tanıdılması və inkişafı üçün nə etmişəm?" adlı inşa yazı müsabiqəsinin qalibləri müəyyənləşib. Bununla bağlı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyində Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində təhsil alan tələbələrin iştirakı ilə "Muxtar respublikanı necə tanıdırıq" mövzusunda dəyirmi masa keçirilib.

Tədbirdə Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Tahir Məmmədli çıxış edərək bildirib ki, Naxçıvanın coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri ilə zənginliyi turizmin inkişafı üçün əlverişli şərait yaradır. Ona görə də Naxçıvanın turizm potensialının tanıdılması əsas vəzifə kimi qarşıya qoyulub və mütəmadi olaraq bu istiqamətdə məqsədyönlü tədbirlər həyata keçirilir. Görülən işlərdə aid təşkilatlarla yanaşı, gənclərin də fəallığı təqdirəlayiq hal kimi qiymətləndirilir və bu, ilbəil müsbət nəticələrini verməkdədir.

Qeyd olunub ki, muxtar respublikada gənclərin yaradıcılıq axtarışlarının stimullaşdırılmasına, vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə, onların intellektual inkişafına və asudə vaxtlarının səmərəli təşkilinə də xüsusi diqqət yetirilir, istedadlı gənclərin üzə çıxarılması məqsədilə müxtəlif yaradıcılıq müsabiqələri təşkil olunur. Cari ilin aprel ayından start verilən "Mən muxtar respublikanın tanıdılması və inkişafı üçün nə etmişəm?" adlı inşa yazı müsabiqəsi gənclərin yaradıcı qabiliyyətlərini aşkara çıxarmaqla yanaşı, həm də doğma diyarımızın turizm potensialının təbliği baxımından əhəmiyyət daşıyır.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin böyük məsləhətçisi Pəri İbrahimova çıxışında son illərdə muxtar respublikanın turizm potensialının tanıdılması istiqamətində görülən işlərdən söhbət açıb. Qeyd edib ki, qədim diyarda bütün sahələrdə gedən dinamik inkişaf, muxtar respublikanın təhlükəsiz region kimi tanınması buraya gələn turistlərin sayının ilbəil artması ilə nəticələnib. Belə ki, cari ilin ötən dövründə Naxçıvana 330 mindən artıq turist gəlib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur.

Tədbirdə muxtar respublikanın turizm potensialının təbliği yolları ilə bağlı geniş müzakirələr aparılıb, məsələ ilə əlaqədar gənclər müxtəlif fikir və mülahizələr irəli sürüb, təkliflər səsləndiriblər.

Sonra müsabiqə qaliblərinə diplom, fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

**Nail ƏSGƏROV**

# *"Mədəni irs"* intellektual oyunu keçirilib

***Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan müəssisələrin gəncləri arasında "Mədəni irs" intellektual oyunu keçirilib.***

Əvvəlcə oyunda iştirak edən 8 komanda haqqında məlumat verilib. Bildirilib ki, bu turda "Melodiya" (Naxçıvan Musiqi Kolleci), "Araz" (Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi), "Arpaçay" (Şərur Rayon Mədəniyyət Şöbəsi), "Turan" (Babək Rayon Mədəniyyət Şöbəsi), "Gəmiqaya" (Ordubad Rayon Mədəniyyət Şöbəsi), "Əlincəqala" (Culfa Rayon Mədəniyyət Şöbəsi), "Çınqıllı" (Şahbuz Rayon Mədəniyyət Şöbəsi), "Yaşıl budaq" (Sədərək Rayon Mədəniyyət Şöbəsi) komandaları iştirak edir.

Komandalara seçim turunun keçirilməsi haqqında məlumat verilərək birdirilib ki, ən çox bal toplayan 4 komanda II tura (finala) vəsiqə qazanacaqdır.

Birinci turda komandaların hər bir iştirakçısı üçün 5, ikinci turda (finalda) isə 10 sual verilib. İlk 9 sual Azərbaycanın və Naxçıvanın mədəniyyəti, incəsənəti ilə bağlı olub. Sonuncu sual isə Azərbaycan filmlərindən fraqmentlər göstərilməklə verilib. Hər bir sualın düzgün cavabı 100 balla qiymətləndirilib.

Maraqlı və gərgin keçən "Mədəni irs" intellektual oyununun final mərhələsinə vəsiqə almış və ən yüksək bal toplamış komandalar mükafatlandırılıblar. "Araz" komandası I, "Turan" komandası II, "Melodiya" komandası III yerə layiq görülüblər.

**Əli RZAYEV**

# Məktəblilər mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olublar

*Naxçıvan Muxtar Respublikası Turizm Diyarşünaslıq Mərkəzində fəaliyyət göstərən dərnəklərə üzv olan Naxçıvan şəhər məktəblilərinin payız tətilini səmərəli keçirmələri məqsədilə onların mədəniyyət müəssisələrinə ekskursiyaları təşkil edilib.*

Duzdağ Fizioterapiya Mərkəzində şagirdlər mərkəz ilə yaxından tanış olub və Naxçıvan duzunun müalicəvi əhəmiyyəti haqqında geniş məlumat alıblar.

Duz Muzeyinə gələn şagirdlər buradakı eksponatlara maraqla baxıblar. Qeyd olunub ki, muzey ekspozisiya zalı və iş otaqlarından ibarətdir. Burada 81 eksponat, o cümlədən duzdan hazırlanmış müxtəlif fiqurlar, Naxçıvan Duzdağı haqqında nəşr olunmuş kitablar, Naxçıvan şəhəri, Nuh Peyğəmbər və Naxçıvan, Duzdağ mədəniyyəti və duz yataqları haqqında dərc olunmuş qəzet materialları, "Duzdağ" sənədlər toplusu nümayiş olunur. Muzeydə duzla bağlı şifahi xalq ədəbiyyatı nümunələri nümayiş etdirilir. Ekspozisiyadakı daş alətlər, daş çəkic və çapacaqlar, duz torbaları, saxsıdan və gildən hazırlanmış duz qabları, daş həvəngdəstə və baltalar, duz kristalları, karsit və duz süxurları Naxçıvan Duzdağının qədim tarixini və mədəni potensialını özündə əks etdirir.

Şagirdlər, həmçinin Naxçıvan Dövlət Tarix Muzeyində, Nəbatat bağında da olub, ekskursiyalar zamanı məktəblilərə Naxçıvan Muxtar Respublikasının turizm potensiali haqqında ətraflı məlumat verilib.

**Aygün NƏCƏFOVA**


## Elan

*Hörmətli abunəçilər!* Siz Naxçıvan Muxtar Respublikasının rəsmi mətbuat orqanı "Şərq qapısı" qəzetinə, şəhər və rayon qəzetlərinə, Azərbaycan Respublikasının qəzet və jurnallarına "Naxçıvanpoçt" MMC və onun poçt filiallarında abunə ola bilərsiniz.

Nəzərinizə çatdırılır ki, qəzet və jurnallara abunə yazılışı 21 noyabr 2018-ci il tarixdən 25 dekabr 2018-ci il tarixədək aparılacaqdır.

***Əlaqə telefonu: (+994 36) 545-07-67***
***Naxçıvan Muxtar Respublikası "Naxçıvanpoçt" Məhdud Məsuliyyəti Cəmiyyəti***



## İtmişdir

14 oktyabr 2015-ci il tarixdə Naxçıvan Regional Peşə Tədris Mərkəzi tərəfindən Salmanov Hüseynəli Əsəd oğlunun adına verilmiş 002012 nömrəli sertifikat itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 843